# HÜSEYNOV ƏFQAN QARAXAN OĞLU



24 fevral 1963-cü ildə Bakı şəhərində dünyaya göz açmışdır. 1970-ci ildə 109 saylı orta məktəbin birinci sinfinə getmiş və 1978-ci ildə səkkizinci sinfi bitirərək C.Naxçıvanski adına Hərbi Liseyə daxil olmuşdur. Liseydə təhsilini başa vurduqdan sonra Bakı Ümumqoşun Komandirlər Məktəbinə qəbul olunmuşdur. 1984-cü ildə bir zabit kimi təyinatla Simferopol şəhərinə göndərilmişdir. 1985-1987-ci illərdə Əfqanıstanda gedən döyüşlərdə iştirak etmiş, bir neçə dəfə ağır yaralanmışdır. Göstərdiyi qəhrəmanlıqlara görə orden və medallarla təltif edilmişdir. Əfqan Hüseynov 1992-ci ilin avqustunda yaranan Milli Qvardiya Alayına komandir təyin edilmişdir. 1 noyabr 1992-ci ildə Qubadlı rayonunun Səfiyan və Quşçular kəndlərinin müdafiəsi zamanı o, qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir qızı var. Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə Hüseynov Əfqan Qaraxan oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. C.Naxçıvanski adına Liseydə və Milli Qvardiya Qərargahında büstü qoyulmuşdur. Xətai rayon gənclər təşkilatında adına əlaçı təqaüdü təsis edilmişdir.